# 2022-2023-cü il

# QƏBUL İMTAHANI

TÜRKİYE DİYANET VAKFI
BAKÜ TÜRK LİSESİ

| SİNİF | QRUP | VARİANT |
|---|---|---|
| 8 | 4 | A |

AD, SOYAD:

ATA ADI:

İŞ NÖMRƏSİ:

1. Cavab kartında kodlaşdırma edən zaman mütləq **qara** və ya **tünd göy** rəngdə yazan *(mürəkkəb axıtmayan, diyircəkli)* **qələm istifadə edilməlidir**.

2. Cavab kartında **ad**, **soyad**, **müraciət(iş) nömrəsi**, **sinif**, **qrup** (*tələb edilən siniflər üçün*) məlumatlarını və sizə təqdim ediləcək kitabçanın **variantını** kodlaşdırmağı ***UNUTMAYIN***.
   - *Kodlaşdırma prosesində xəta baş verdikdə mütləq nəzarətçiyə müraciət edib, yardım istəyin. Əks halda cavab kartınız yararsız hala düşə və əlavə vaxt itkisi yaşaya bilərsiniz.*
   - *Qeyd edilmiş hissələr kodlaşdırılmadıqda və ya əksik kodlaşdırıldığı zaman nəticələriniz* ***HESABLANMAYACAQDIR***.

3. Cavab kartındakı ***boş sahələrdə***, eləcədə ***kənar xəttin*** üzərində müxtəlif tipli qaralamalar və əlavə qeydlər etmək **olmaz**.

4. İmtahanı bitirdikdən və ya imtahan üçün təyin edilmiş müddət bitdikdən sonra ***sual kitabçası*** və ***cavab kartı*** nəzarətçiyə təhvil verilməlidir.

5. Qapalı tipli test tapşırıqlarında edilmiş **4 səhv** cavab **1 doğru** (***1 səhv** cavab **0,25 doğru***) cavabın balına təsir edir.

6. İmtahan prosesi zamanı **QADAĞANDIR**: (*Belə hallar aşkar olunarsa, həmin şagirdlər imtahandan xaric oluna bilər.*)
   - İmtahana ***mobil telefon*** və ***digər rabitə vasitələri***, ***kalkulyator*** və ***digər elektron cihazlar***, ***konspekt***, ***lüğət***, ***cədvəl***, ***məlumat kitabçası***, ***xarici yaddaş qurğuları*** və ***başqa yardımçı vasitələr*** gətirmək, onlardan istifadə etmək;
   - ***Nizam-intizam qaydalarını*** pozmaq, ***zalda yerini dəyişmək***, ***gəzişmək*** və bu kimi ***digər hallarda imtahana mane*** olmaq;
   - Başqasının cavab kartı və kitabçasına ***baxmaq*** və ya öz cavab kartı və kitabçasına başqasının baxması üçün ***şərait yaratmaq***;
   - Nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün və bu kimi digər məsələlərlə bağlı müraciət etmək;

## Açıq tipli test tapşırıqlarının doğru kodlaşdırma üsulları

*Cavablar soldan sağa doğru qaralanmalıdır. Məsələn sualın cavab "34"- olarsa*




*Seçim və xronoloji ardıcıllıq tipli suallarda "vergül" dairəsi əsla qaralanmamalıdır. Məsələn sualın cavabı 1,3,5- olarsa*




*Bir sütunda sadəcə 1 dairə qaralana bilər. Məsələn sualın cavabı 27-olarsa*



## AZƏRBAYCAN DİLİ

***Mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 1-5 saylı tapşırıqları yerinə yetirin.***

Keçmişdə böyük elmi məqama sahib olan bir alim yaşayırmış. Onun əxlaq sahəsində yüksək elmi dəyəri olan bir kitabı sufilər təriqətinə mənsub olan dövrün böyük dərvişinin əlinə keçir. [1] Sufilər bütün dünya nemətlərindən kənar gəzən, var-dövlətdən, vəzifə və məqamdan tamamilə uzaq olan evsiz və hətta adsız yaşayan insanlardır.

Dərviş kitabı oxuduqdan sonra bu kitabın müəllifinin yüksək məqam sahibi olduğunu düşünür, onunla görüşmək qərarına gəlir.

Uzun axtarışdan sonra alimin yaşadığı yerə gəlib çatır, ondan-bundan soruşa-soruşa alimin evini tapır. Bir neçə mərtəbəli böyük bir malikanəni görən dərviş əvvəlcə doğru ünvana gəldiyinə şübhə edir. Bir neçə qonşudan təkrar soruşandan sonra düz gəldiyinə tam əmin olur. [2] Böyük narahatçılıq hissi keçirən dərviş əvvəlcə geri qayıtmaq istəyir, ancaq öz-özünə deyir ki, bu yalançı, özü yazıb, ancaq əməldə haqdan uzaq olan alimə bir neçə söz desəm, yaxşı olar.

Dərvişə qapını alimin özü açır. [3] Ondan kim olduğunu soruşduqdan sonra ürəyində onu narahat edən <u>mətləbi</u> deyir:

— Sən kitabında dünyapərəstlikdən uzaq olmaqdan, aza qane olmaqdan, maddiyyatın hədəf olmamasından, dünya nemətlərinin insan üçün böyük təhlükə olmasından yazdığın halda, özün bütün maddi nemətləri ətrafında toplamısan.

Alim onu içəri dəvət edir, bir az söhbət etdikdən sonra dərvişə deyir:

— Mənimlə yüksək mənəvi, ruhani məqama yetişmiş birini ziyarət etməyə gedərsənmi? Mən sənə hər şeyi yolda başa salacağam.

[4] Alim imarətinin qapısını bağlamadan, mülkünü kiməsə tapşırmadan evi tərk edir. Bir az yol gedəndən sonra birdən dərviş alimə: "Dayan, mən papağımı sizdə unutmuşam, gəl geri qayıdıb onu götürək",-deyir.

Dərviş geri qayıtmaq istəyəndə alim onun qolundan tutub deyir:

— Mən getdiyimiz müqəddəs məkana o qədər can atıram ki, sən mənimlə getməyə razılıq verən kimi bütün mülkümü tərk edib ora doğru tələsdim. Sənin isə min yerindən yamaq vurulmuş bir papağın var, onu bizim evdə unutduğuna görə geri qayıtmaq istəyirsən. [5] Bir yamaqlı, dəyərsiz papaq səni müqəddəs hesab edilən elə böyük məqama doğru getməkdən saxladı.Ey dərviş, sənin o cırıq papağa olan bağlılığın mənim əlimdə olan bütün mülkə, var-dövlətə olan bağlılığımdan daha çoxdur.Bil ki, həqiqi zahid...



**1.** Nöqtələrin yerinə uyğun gələn nümunə hansıdır?
A) heç nəyi olmayan yox, heç nəyə bağlı olmayandır.
B) mağarada yaşamalı və daim oruc tutmalıdır.
C) elmi əsərlər oxumalı, öyrəndiklərini həyata keçirməlidir.
D) dünyəvi tərəqqi üçün çalışmamalı, özünü var-dövlətdən məhrum etməlidir.
E) var-dövləti qəlbən sevməlidir.

**2.** Mətndə hansı suala cavab **yoxdur**?
A) Dərviş alimin kitabını oxuduqdan sonra nə qərara gəlir?
B) Alimin dərvişi aparmaq istədiyi müqəddəs məkan hansı şəhərdə yerləşirdi?
C) Dərvişi hansı mətləb narahat edirdi?
D) Alimin hansı sahədə yüksək elmi dəyəri olan kitabı dərvişin əlinə keçir?
E) Dərviş nəyə görə geri qayıtmaq istəyirdi?

**3.** Mətndən çıxan əsas fikri müəyyənləşdirin.
A) Varlılığa tələsən yoxsulluğa tez düşər.
B) Yalançının dili topuq vurar.
C) Libasım yamaq götürür, qarnım yox.
D) Gözü tox olanın könlü də tox olar.
E) Malını yaxşı saxla, qonşunu oğru tutma.

**4.** Cədvələ əsasən mətndə altından xətt çəkilmiş sözün şərhi ilə bağlı doğru fikirləri müəyyən edin.

| *Yerinə görə mənası* | *Həmin mənanın ifadə olunduğu cümlə* |
|---|---|
| **1.** *təklif*<br>**2.** *məsələ*<br>**3.** *məlumat* | **4.** *O, çətin bir məsələ qarşısında özünü itirmiş kimi dururdu.*<br>**5.** *Bu təklifi yerə salmamış, düşünmüş, yaxşıca dəyərləndirmişdi.* |

A) 1,4 B) 2,4 C) 3,5 D) 1,5 E) 2,5

**5.** "*Dərviş könülsüz surətdə razı olur*" cümləsinin mətndə uyğun yerini müəyyən edin.
A) [1] B) [2] C) [3] D) [4] E) [5]

**6.** Söz sırasını düzgün bərpa etdikdə hansı cümlənin sintaktik təhlili
〰 ——— ········ 〰 ═══ *sxeminə uyğun olar?*
A) Heyranlıqla təbiətin bu əvəzsiz gözəlinə cavan ovçu tamaşa edirdi.
B) Gözləri eyvanın yanındakı qoca meynəyə sataşdı birdən.
C) Dilqəmdən kənd adamları bunun səbəbini soruşdular.
D) Qayığı dəlirdi arı kimi vızıldaşan güllələr.
E) Qarabağ müharibəsinin iştirakçısı, azadlıq hərəkatının şəhid qızıdır gənc jurnalist Salatın Əsgərova.

**7.** Nümunədə hansı durğu işarələri buraxılmışdır?
*Düşmənin qaçaqaçda qoyub getdiyi araba mətbəx şeyləri silah ərzaq motosiklet benzin çəlləkləri heç nə nəzərimi cəlb etmədi.*
A) 2 tire, 3 vergül B) qoşa nöqtə, 4 vergül
C) tire, 5 vergül D) tire, qoşa nöqtə, 3 vergül
E) tire, 4 vergül

**8.** *"Olimpiadada iştirak edən oğlan bacısı kimi həyəcanlı deyildi"* cümləsində ikinci dərəcəli üzvlərdən işlənmişdir?
A) təyin və zərflik B) təyin və tamamlıq
C) yalnız zərflik D) yalnız təyin
E) təyin, tamamlıq və zərflik

**9.** Əgər iki həmcins tamamlıq arasında vergül işarəsindən istifadə edilməmişdirsə, bunun səbəbi nədir?
1. *ya, ya da* bağlayıcılarından istifadə edilməsi
2. *və* bağlayıcısından istifadə edilməsi
3. *ilə* bağlayıcısından istifadə edilməsi
4. *da, də* bağlayıcısından istifadə edilməsi
A) 1,4 B) 3,4 C) 2,3 D) 2,4 E) 1,3

**10.** Hansı nümunə bitmiş fikir ifadə edir, lakin cümlə üzvlərinə görə təhlil **olunmur**?
A) Bəlkə də, gələrdi. B) Deyəsən, vaxtdır.
C) Əlbəttə, dostum. D) Cənab, nə lazımdır?
E) Təbriz şəhəri. Xalça fabrikinin qarşısı.

**11.** Uyğunluğu müəyyən edin.
***1. Ümumi şəxsli cümlə*** ***2. Müəyyən şəxsli cümlə***
***3. Şəxssiz cümlə***
*a. Tamaşanın sonunda aktyorları və müəllifi alqışladılar.*
*b. Nərimanın həyəcandan rəngi qaçmışdı.*
*c. Sözünün yerini bilməyən zəvzəyin gərək dərsini verəsən.*
*d. Atlılar dincəlmək üçün bir müddət kənddə qaldılar.*
*e. Suda batan saman çöpündən yapışar.*
A) 1-c; 2-d,e; 3-b B) 1-b,d; 2-e; 3-c
C) 1-a; 2-c,e; 3-b,d D) 1-a,c; 2-d, 3-b,e
E) 1-c,e; 2-b; 3-d

**12.** Hansı cümlələrdə "olmaq" feili müstəqil xəbər kimi işlənmişdir**?**
*1. Niyaz təzə yaylaqçı ilə çay qırağında tanış oldu.*
*2. O, çobanların yaşadığı alaçıqda olmuşdu.*
*3. Mərcan xanım Gəncədə olurdu.*
*4. Bu materiallardan tikintidə indi daha çox istifadə olunur.*
*5. Ən dadlı balıqlar bu çayda olur.*
A) 1,2,3 B) 2,4 C) 1,3,5 D) 1,4 E) 2,3,5



**13.** Cümləni genişləndirən üzvləri müəyyən edin.
*Qəddar$^{1}$ tiran$^{2}$ yırtıcı$^{3}$ heyvandan$^{4}$ pisdir$^{5}$. (Konfutsi)*
A) 1,2,3 B) 1,5 C) 1,3,4 D) 3,5 E) 2,4,5

**14.** Mürəkkəb adlardan biri **səhv** yazılmışdır:
A) Humanitar Siyasət Məsələləri Şöbəsi
B) Beynəlxalq Ana Dili Günü
C) Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti
D) Ağstafa Rayon Təhsil Şöbəsi
E) Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

**15.** Doğru fikirləri müəyyən edin.
İsmi birləşmədir:
*1. mənim yazdığım*
*2. qədim əfsanə*
*3. zirvəyə doğru yol*
Feili birləşmədir:
*4. insanın azad yaşamağı*
*5. sən razı olanda*
A) 2,4,5 B) 1,5 C) 3,4 D) 1,2,4 E) 2,3,5

**16.** Klasteri tamamlaya bilən nümunələri müəyyən edin. (*Bəzi durğu işarələri məqsədli şəkildə buraxılıb.*)
*Yerinə görə həm əmr, həm də nida cümləsi kimi təhlil edilə bilər.*
*Özünü başqasının uğursuzluğuna görə məhv etmə (Qrasian)*
______
______

*1. Xalq qanun yolunda öz evinin divarları uğrunda vuruşduğu kimi vuruşmalıdır(Heraklit)*
*2. İnsan qorxaqlarla əhatə olunanda özünü tənha hiss edir (Kamyu)*
*3. Yalnız yıxılanı qaldırmaq üçün əyil ( Epikur)*
*4. Oğlumu necə tərbiyə edim*
*5. Zirvələrə aparan yolda qoy səbrin sənə bələdçi olsun (Əl-Ənsari)*
A) 1,3 B) 2,5 C) 1,4 D) 3,5 E) 2,4

**17.** "Filosof danışarkən ağsaçlı qoca ona diqqətlə qulaq asırdı" cümləsindəki sözlər arasında göstərilən əlaqələrdən biri **səhvdir?**
A) filosof ← danışarkən
B) ağsaçlı → qoca
C) ona → qulaq asırdı
D) qoca ← qulaq asırdı
E) diqqətlə → qulaq asırdı

**18.** Hansı cümlədə məqsəd zərfliyi **işlənməmişdir**?
A) Səhər tezdən Cəlil yarışmağa bura gələcək.
B) Yollara baxmaqdan gözlərim axdı.
C) O, kankan idi, amma acından ölməmək üçün arpa əkirdi.
D) Onlar nəcib, yüksək bir məqsəd uğrunda vuruşurdular.
E) O, göylərə qanad çalmağa getdi,
Qızın qisasını almağa getdi. (*M. Rahim*)

**19.** Hər iki fikri hansı nümunəyə aid etmək olar?
● *Müraciət olunan şəxsi bildirən söz isimlə ifadə olunub.*
● *Danışanın ifadə etdiyi fikrə münasibət bildirən söz başqa məqamda qoşma kimi də işlənə bilir.*
A) Uşaqlar, Parisin, əsasən, klassik üslubda ucaldılmış imarətləri arasında Pompidu İncəsənət Muzeyi qeyri-adi görkəmi ilə görənləri heyran edir.
B) Ə.Ələkbərov, həqiqətən, dramatik rolların əvəzsiz ifaçısı idi.
C) Sultanım! Bu vəziyyətdə tərəddüd etmək, məncə, yersizdir.
D) Mən bilirəm, Gülgəz, sənin bu işdən xəbərin yoxdur.
E) Dostum, "Əkinçi" bağlansa da, əlbəttə ki, Azərbaycan mətbuatının sonrakı inkişafına güclü təkan oldu.

**20.** Verilmiş cümlələrdə mübtədaların ifadə vasitəsinə görə düzgün ardıcıllığını müəyyən edin.
● *Üfüqə qədər uzanan taxıl zəmiləri ananın gözləri qarşısında dalğalandı.*
● *Gənc təmkinini pozmadan dərvişin sualına cavab verdi.*
● *Ucu-bucağı görünməyən dərya sıxıla-sıxıla geri çəkilirdi.*
● *Müəllim istəyən qədrini bilər.*
● *Ey oğul, sən yenə də qənaətlə dolan.*
***1. feili birləşmə*** ***2. sifət*** ***3. isim***
***4. ismi birləşmə*** ***5. əvəzlik***
A) 4,1,3,2,5 B) 5,1,4,2,3 C) 1,3,4,2,5
D) 1,4,5,2,3 E) 4,2,3,1,5

**21.** Hansı cümlədə yer zərfliyinin əlavəsi işlənmişdir?
A) Əsmər xala İlyası burada – Tamamın evində gördükdə təəccübləndi.
B) Mərdəkana – bağına qayıdanda da Nəcəfoğlu eyni sözləri təkrar edirmiş.
C) Uzaqda – pillələrin qurtaracağında ağ mərmər məhəccər vardı.
D) Mənim fikrim orada – yazı taxtasında idi.
E) Hacı İbrahimxəlilin evi kəndin ayağında – göl başında idi.

**22.** Asılı tərəfi sifət olan ismi birləşməni müəyyən edin.
*1. igidlər yurdu* *2. yaxşını qiymətləndirən*
*3. dünənki tədbir* *4. gənclik təravəti*
*5. qızıl bilərzik* *6. sabiq hakim*
A) 4,5,6 B) 1,2,3 C) 1,3,6 D) 2,3,4 E) 1,3,5

**23.** Altından xətt çəkilmiş hansı sözlər məna və qrammatik cəhətdən bir-biri ilə **əlaqələnmir?**
A) Bakı bağlarında belə hovuzlara "dəryaça" deyərdilər.
B) Dəniz bəbirləri həmişə pinqvinlərin yaşadığı sahil boyu üzüb əlverişli məqam gözləyirlər.
C) Göy üzündə bir dəstə qartal halay vurub hərlənirdi.
D) İmtahan zamanı düzgün bölən şagirdlər üçün daha uğurlu olur.
E) Günəş şüaları yer səthini qızdırır.

**24.** Cümləni elə tamamlayın ki, xəbər həm ismi, həm də feili xəbər kimi izah edilə bilsin.
***Anbarda saxlanılanlar ...***
A) təhvil verilməlidir. B) yanacaqdır.
C) ərzaq mallarıdır. D) kəndin taxılıdır.
E) baha qiymətə satılacaq.

**25.** Nümunələrdən birində üstündə rəqəm yazılmış sözlərin tərkibindəki bütün şəkilçilər ixtisar edilə bilər:
A) Bunlar Azərbaycan xalqı üçün sənət yaradacaqlar[1], mübarizə aparacaqlar[2], səhnə düzəldəcəklər.
B) Eldar danışmırdı[1], gəlib-gedənlərə baxırdı[2], öz növbəsini gözləyirdi.
C) O, biliklilərə[1],bacarıqlılara[2] və gənclərə qayğı göstərərdi.
D) İndi mədənlərimizdə[1], zavodlarımızda[2] və fabriklərimizdə təmirarası müddəti uzadırlar.
E) Usta Zeynal qeyrətlidir[1], ağıllıdır[2] və artıq dərəcədə vəfalıdır.

## RİYAZİYYAT

**26.** $x^2 = 4x + 5$ tənliyinin müsbət kökünü tapın.

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**27.** $ABC$ üçbucağında $\angle C = 90^\circ$, $CE \perp AB$, $AE = x_1$, $BE = x_2$. $x_1$ və $x_2$ ədədləri $x^2 - 12x + 16 = 0$ tənliyinin kökləri olarsa, düzbucaqlı üçbucağın sahəsini tapın.




A) 48 B) 12
C) 36 D) 32
E) 24

**28.** $A(6;2)$ nöqtəsi koordinat başlanğıcı ətrafında saat əqrəbi istiqamətində 90° dönməsi nəticəsində $B$ nöqtəsinə çevrilir. $A$ və $B$ nöqtələrindən keçən düz xəttin bucaq əmsalını tapın.

A) -2 B) 1 C) 2 D) 4 E) $-\frac{1}{3}$

**29.** $a \parallel b \parallel c$ olarsa, $\frac{x+y}{y-x}$ ifadəsinin qiymətini tapın.

A) 1 B) 2 C) 3
D) 4 E) 5




**30.** Hesablayın: $\sqrt{3 \cdot \sqrt{144}} + \left(5\sqrt{2}\right)^2 - \left(\frac{1}{3}\right)^{-3}$

A) 29 B) 30 C) 36 D) 24 E) 42

**31.** $7(x-5) \le 3(x-1)$ bərabərsizliyini ödəyən ***cüt natural*** ədədlərin cəmini tapın.

A) 16 B) 18 C) 20 D) 22 E) 28

**32.** $ABCD$ paraleloqramında $AB \perp BD, BD = 8$ və $AD - AB = 4$. $BC$ tərəfi üzərində hər hansı $E$ nöqtəsi qeyd edilmişdir. $S_{\Delta AED}$ –ni tapın.

A) 32 B) 36
C) 48 D) 24
E) 12




**33.** x = 3 və y = 2 olarsa, $\left(\frac{y\sqrt{y}}{x}\right)^{-y}$ ifadəsinin qiymətini tapın.

A) $\frac{2}{3}$ B) $\frac{9}{8}$ C) $\frac{\sqrt{3}}{5}$ D) $\sqrt{5}$ E) 2

**34.** Tərəfi 10 sm olan $ABCD$ rombunun diaqonalları $O$ nöqtəsində kəsişir. $DO = 6$ olarsa, rombun sahəsini tapın.

A) 84 B) 120
C) 72 D) 135
E) 96




**35.** $\frac{15}{4\sqrt{5}}$ kəsrini irrasionallıqdan azad etdikdən sonra ən kiçik məxrəcli $\frac{\sqrt{b}}{a}$ kəsri alındı. $a$ və $b$ natural ədədlər olarsa, $b\sqrt{a}$ ifadəsinin qiymətini tapın.

A) 90 B) 120 C) 75 D) 100 E) 8

**36.** $ABC$ üçbucağında $\angle C = 90^\circ$, AE tənböləndir. $CE = 3$, $EB = 5$ olarsa, $\tan \angle AEC$ – ni tapın.

A) $\frac{3}{5}$ B) $\frac{4}{3}$
C) 2 D) $\frac{12}{5}$
E) 1




**37.** $|2x - 1| \leq 3$ bərabərsizliyini həll edin.

A) (1; 2) B) [−3; 2) C) [−1; 2]
D) (1; 3] E) ∅

**38.** Şəkildə tərəfinin uzunluğu $10\sqrt{2}$ sm olan kvadratın daxilinə perimetri 28 sm olan düzbucaqlı çəkilmişdir. Düzbucaqlının diaqonalının uzunluğunu tapın.

A) 12 B) $6\sqrt{2}$
C) 5 D) $4\sqrt{2}$
E) 10



**39.** $-3 < x < -2$ və $1 < y < 3$ olarsa, $2x + 3y$ cəminin ala biləcəyi tam qiymətlərin cəmini tapın.

A) 7 B) 8 C) $-6$ D) 5 E) $-4$

**40.** Cədvəldə $y = \frac{k}{x}$ funksiyasının $x$ və $y$ dəyişənlərinə uyğun qiymətləri verilmişdir. Cədvələ əsasən a-b+c ifadəsinin qiymətini tapın.

| | | | | |
|---|---|---|---|---|
| ***x*** | *a* | *8* | *16* | *c* |
| ***y*** | *32* | *12* | *b* | *24* |

A) 2 B) 3 C) 1 D) $-2$ E) $-1$

**41.** $AB$ və $CD$ parçaları $E$ nöqtəsində kəsişir. $\angle CAE = \angle BDE$, $AC = 24$, $BD = 16$, $ED = 10$ olarsa, $EA$ $-$ni tapın.

A) 10 B) 12
C) 14 D) 15
E) 18




**42.** İfadəni sadələşdirin: $\left(\frac{1}{x+2y} + \frac{2y}{x^2+2xy}\right) : \frac{1}{x+y}$

A) $\frac{x+y}{x}$ B) $\frac{x-y}{y}$ C) $\frac{y}{x}$
D) $\frac{x}{y}$ E) $\frac{x-y}{x+y}$

**43.** ABCD trapesiyasının hündürlüyü $2\sqrt{3}$, oturacaqları $BC = \sqrt{4 - 2\sqrt{3}}$ və $AD = \sqrt{4 + 2\sqrt{3}}$ olarsa, onun sahəsini tapın.

A) $2\sqrt{3}$ B) 7 C) $4\sqrt{3}$ D) 8 E) 6

**44.** $ABC$ üçbucağında $\angle C = 90^\circ, \angle AEB = 135^\circ$, $AB = 25$, $AE = \sqrt{98}$ olarsa, $BE$ parçasının uzunluğunu tapın.

A) 15
B) 11
C) 12
D) 17
E) 14




**45.** Uyğunluğu müəyyən edin.

***1.*** $\boldsymbol{y = 2x - 4}$

***2.*** $\boldsymbol{y = 10 - 5x}$

***3.*** $\boldsymbol{y = 3x}$

*a)* Bucaq əmsalı $-5$-ə bərabərdir.

*b)* Bucaq əmsalı 2-ə bərabərdir.

*c)* $y = -5x + 2$ düz xəttinə paraleldir

*d)* y= $-$0,5x+1 düz xəttinə perpendikulyardır

*e)* Bucaq əmsalı 3-ə bərabərdir

A) 1-a; 2-b; 3-c,d
B) 1-b,d; 2-a,c; 3-e
C) 1-a,d; 2-b; 3-c
D) 1-e; 2-a,d; 3-b,c
E) 1-a,d; 2-b; 3-e

**46.** Motorlu qayıq 20 km çay axını ilə, 16 km göldə hərəkət edərək bütün yola 2 saat vaxt sərf etdi. Çayın sürətinin $4\ \frac{km}{saat}$ olduğunu bilərək, motorlu qayığın durğun sudakı sürətini tapın.

A) $8\ \frac{km}{saat}$
B) $14\ \frac{km}{saat}$
C) $10\ \frac{km}{saat}$
D) $16\ \frac{km}{saat}$
E) $12\ \frac{km}{saat}$

**47.** Şəkildə katetləri $a$ və $b$, hipotenuzu $c$ olan düzbucaqlı üçbucaq verilmişdir. $a + c = 12$ olarsa, üçbucağın perimetrinin tam hissəsini tapın.

A) 18
B) 15
C) 20
D) 17
E) 22




**48.** Şəkildə ən böyük tərəfinin uzunluğu $x$ olan *korbucaqlı* üçbucaq verilmişdir.İfadənin qiymətini tapın: $\sqrt{(9-x)^2} + \sqrt{(10-x)^2} + 2\sqrt{(14-x)^2}$

A) 17
B) 10
C) 12
D) 9
E) 23



**49.** Kiçik oturacağı yan tərəfinə bərabər olan bərabəryanlı trapesiyanın diaqonalı yan tərəfinə perpendikulyardır. Trapesiyanın perimetri 60 sm olarsa, onun böyük oturacağının uzunluğunu tapın.

A) 16 sm B) 18 sm
C) 15 sm D) 24 sm
E) 20 sm



**50.** Şəkildə $y = \frac{-12+3a}{x}$ funksiyasının qrafiki verilmişdir. $a-nın$ ala biləcəyi bütün natural ədədlərin cəmini tapın.

A) 8 B) 6 C) 11 D) 2 E) 3




## BİOLOGİYA

**51.** Əti qaynatdıqda onun tərkibində olan B qrupu vitaminlərinin miqdarının (m) qaynatma vaxtından (*t dəq*) asılı olaraq dəyişməsi verilmişdir. Qrafikə əsasən X-in ən kiçik qiymətini tapın .

A) 170 B) 85 C) 95
D) 80 E) 110




**52.** Diş tacı xaricdən nə ilə örtülüb?

A) sement B) mina C) dentin
D) özək E) diş boynu

**53.** Limfa ilə qan arasındakı ortaq xüsusiyyət verilənlərdən hansıdır?

A) hemoqlobinin olması
B) çox sayda eritrositə sahib olmaları
C) rəngsiz olmaları
D) həzm olunmuş qida maddələri daşımaları
E) dövranın zəif olması

**54.** Cədvələ əsasən X + Y-in cəmini hesablayın:

| *Sinir toxumasının müəyyən hissəsində olan hüceyrə sayı* | *Bu hissədə dayaq rolu oynayan hüceyrə sayı* | *Bu hissədə sinir impulslarının ötürülməsində iştirak edən hüceyrə sayı* |
|---|---|---|
| X | 70 mld | Y |

A) 84 mld B) 7 mld C) 70 mld
D) 77 mld E) 92 min

**55.** Verilənlərdən hansı duyğu orqanlarının hamısı üçün ortaqdır?

A) reseptorlarının xarici mühitlə bilavasitə əlaqəli olması
B) impulsun ötürülməsində ara beynin iştirak etməməsi
C) impulsun ara beyindən keçib yarımkürələr qabığına ötürülməsi
D) çəkisizlik şəraitində fəaliyyət göstərmələri
E) reseptor,sinir yolu,mərkəz olaraq analizatorun hər 3 hissəsinə sahib olmaları

**56.** Şəklə baxaraq verilmiş mətndə neçə düz fikir olduğunu qeyd edin:

*"Şəkildə sadə refleks göstərilmişdir. Bu refleks diz refleksidir. Refleks qövsü 3 mərhələdən ibarətdir. Refleks qövsündə 3 növ neyron iştirak etmişdir. Mərkəzi sinir sistemində 1 növ neyronun cismi iştirak edir . Bu zaman insan iradi hərəkət edir"*



A) 3 B) 4 C) 2 D) 1 E) 5

**57.** Səid idmanı sevən biridir. O, idman edərkən tənəffüs hərəkətləri tezləşir. 1 tənəffüs hərəkəti zamanı ən son baş verən hadisə aşağıdakılardan hansıdır?

A) tənəffüs mərkəzinin oyanması
B) hüceyrələrdə karbon qazının artması
C) diafraqmanın yığılması
D) qabırğalararası əzələnin yığılması
E) döş qəfəsinin həcminin kiçilməsi

**58.** Eyler-Venn diaqramında X-ə uyğun gələnləri qeyd edin:




1. *əzələlərdə uyğunsuzluq nəticəsində yaranan və əməliyyatla düzələ bilən qüsur*
2. *çəkic, zindan, üzəngi sümükləri*
3. *orqanizmin xarici mühitlə əlaqəsi həyata keçirilir*
4. *otoskleroz xəstəliyi*
5. *xarici mühit qıcıqlarının təsiri ilə reseptorlarında oyanmaların baş verməsi.*

A) 1,4 B) 3,5 C) 3,4,5 D) 2,3,4 E) 2,5

**59.** 150 litr ilk sidiyin əmələ gəldiyi vaxt bərabərdir:

A) ciftin hormon ifraz etdiyi zamana
B) 2 – 2,5 litr mədə şirəsi ifraz olunan zamana
C) Süd dişlərinin çıxdığı vaxta
D) alveoldan kapilyara 25 sm$^3$ $O_2$ qazının keçdiyi zamana
E) yorulmaz "mühərrikin" 1 tsiklda istirahət etdiyi vaxta

**60.** Kütləsi 50 kq olan orta yaşlı sağlam insanın dövr edən qanında(*1/4–i ehtiyat halında toplanır*) minimum nə qədər eritrosit vardır? (*qan bədən kütləsinin 8%ni təşkil edir*)

A) $22 \times 10^{12}$ B) $6 \times 10^{6}$ C) $14,4 \times 10^{12}$
D) $12 \times 10^{12}$ E) $12 \times 10^{10}$

**61.** İnsanın neçə bədən boşluğunda yerləşən orqanları verilib?



A) 6 B) 4 C) 1 D) 2 E) 5

**62.** Yaş artdıqca sümüklərin qırılma ehtimalı da artır. Bunun səbəbi verilənlərdən hansı ola bilər? Sümükdə:

A) üzvü maddələrin artması
B) qeyri-üzvü maddələrin azalması
C) qeyri-üzvü maddələrin artması
D) elastikliyin artması
E) sərtliyin azalması

**63.** Cift hormon ifraz etmir:




A) 2,3,4,5 B) 2,4,5 C) 1,4,5
D) yalnız 1,3 E) 1,3,4,5

Qəbul İmtahanı - 2023

**64.** Cədvəldə insanın böyük qan dövranında iştirak edən qan damarları və onlarda qanın həcmi göstərilmişdir. Əgər insanda venoz qan ürəyə daxil olduqdan sonra ağciyər arteryasında qanaxma baş verərsə, aşağıdakı ifadələrdən hansı doğrudur?

| *Damarlar* | *Qanın həcmi (litrlə)* |
|---|---|
| Aorta | X |
| Aşağı boş vena | Y |
| Yuxarı boş vena | Z |

A) X>Y+Z B) X=Y+Z C) X<Y+Z
D) X+Y<Z D) X+Z<Y

**65.** Sağlam qadının normal postembrional inkişaf dövründə baş verən ovulyasiya sayının onun yaş dövründən asılılıq qrafiki verilmişdir.Qrafikə əsasən X-in maksimum qiymətini müəyyən edin (*hər 2 yumurtalığın iştirakı ilə; mayalanma baş verməyib; 28 günlük tsikl*).




A) 28 B) 34 C) 16
D) 41 E) 26

**66.** Əzələ toxumasının növ sayını (X) ilə, ürəyə daxil olan damar sayını (Y) ilə işarə edəriksə, (XY) hasili hansı variantdakı rəqəmə uyğun olar?
A) həzm sisteminə aid olub həzm kanalından kənarda yerləşən vəzilərin sayına
B) parçalanma məhsulu $CO_2$, su,azotlu birləşmələr olan maddənin günlük normasına
C) qızlarda boy artımının təxminən davam etdiyi yaşa
D) orqanizmin 1 sutkada ehtiyac duyduğu C vitamininin miqdarına
E) sarı cismin hormon ifraz etdiyi vaxta

**67.** Nisbi sakitlik halında insan 3 dəqiqə tənəffüs hərəkəti zamanı ağciyər kapillyarlarına neçə litr $O_2$ daxil olur və atmosferə neçə litr $CO_2$ buraxılır?
A) 4,8 l $O_2$; 4,80 l $CO_2$ B) 3,6 l $O_2$; 3,84 l $CO_2$
C) 1,2 l $O_2$ ; 0,96 l $CO_2$ D) 2,4 l $O_2$; 1,92 l $CO_2$
E) 0,6 l $O_2$; 0,84 l $CO_2$

**68.** İnsanın ifrazat sisteminə daxil olan strukturların adına uyğun doğru cavabı müəyyən edin:




| | 1 | 2 | 3 |
|---|---|---|---|
| A) | henle ilgəyi | böyrək piramidası | sidik axarı |
| B) | piramida | sidik toplayıcı kanal | sidik kanalı |
| C) | qabıq qatı | böyrək ləyəni | sidik axarı |
| D) | böyrək piramidası | böyrək ləyəni | sidik axarı |
| E) | qabıq qatı | beyin qatı | sidik toplayıcı kanal |

***Verilənlərə əsasən 69 - 71-cı testləri cavablandırın.***

*Müəllim lövhədə cədvəl çəkərək insana məxsus müxtəlif daxili sekresiya vəziləri haqqında məlumat qeyd edir.*

| *Daxili sekresiya Vəziləri* | *Xüsusiyyətləri* |
|---|---|
| X | Hormonu parathormon adlanır |
| Y | Qaraciyərin yerləşdiyi bədən boşluğunda yerləşir |
| Z | Artıqlığında yaşlılarda akromeqaliya xəstəliyinə səbəb olur |

**69.** Y-ə uyğun olan variant :
A) qarışıq sekresiya vəzidir
B) hormonunun çoxluğunda bazedova səbəb olur
C) hormonu az ifraz olduqda uşaqlarda kretinizmə səbəb olur
D) sayı 4 ədəddir
E) bu vəzin təmasda olduğu orqanda geri sorulma baş verir

**70.** İnsanda X ilə işarə olunmuş vəzilərin ümumi sayı ...... sayı ilə eynidir
A) ürək boşluğuna birləşən ,içərisində arterial qan axan vena damarlarının
B) gözdəki bütün qişaların
C) immun sisteminə aid olan orqanların
D) hər 2 qulaqdakı eşitmə sümüklərinin
E) ifrazat sistemi orqanlarının yerləşdiyi bədən boşluqlarının

**71.** Qeyd edilənlərdən hansının və ya hansılarının hormonu normadan az ifraz olunduqda uşaqlarda cırtdanboyluluq ilə nəticələnir?

A) X B) X və Y C) Y D) X və Z E) Z

**72.** Banu, insanın cinsiyyət sistemi ilə əlaqədar verilən məlumatları doğru və yanlış olaraq işarələmişdir.Bu işarələmələrdən hansı səhvdir?

1. *mayalanma yumurta borusunda gedir (Y)*
2. *ovulyasiya uşaqlıqda baş verir(D)*
3. *mayalanmadan bilavasitə sonra ziqot uşaqlığın divarına yapışır(Y)*
4. *mayalanmadan bir neçə gün sonra çoxhüceyrəli rüşeym uşaqlıq borusunun divarına yapışır(Y)*
5. *prostat vəzin ifraz etdiyi maye ilə toxumluqda əmələ gələn spermatozoidlərin qarışımı sperma adlanır(Y)*

**73.** Qida 12 barmaq bağırsağa keçdikdən sonra aşağıdakılardan hansı baş verər?

1. *mədəaltı vəzin ferment ifrazının fəallaşması*
2. *öd ifrazatının artması*
3. *mədə əzələsinin yığılıb boşalması*
4. *nazik bağırsaqda qələvi mühitin yaranması*
5. *qığırdaq qırtlaq qapağının bağlanması*
6. *nazik bağırsaqda turş qida horrasının neytrallaşması*

**74.** Böyrəklərdə baş verən proseslərdən hansı və ya hansıları ağciyərdə də baş verir?

1. *qanın mineral duzlardan tam təmizlənməsi*
2. *suyun xaric edilməsi*
3. *maddələr mübadiləsinin olması*
4. *geri sorulma*
5. *venoz qanın arterial qana çevrilməsi*
6. *oksigenin qana keçməsi*

**75.** Sümük birləşmələrində uyğunluğu müəyyən edin :

***1. Hərəkətli*** ***2. Yarımhərəkətli*** ***3. Hərəkətsiz***

a. bazu-said
b. bir-biri ilə birləşən döş və bel fəqərəsi
c. alt çənə - gicgah sümükləri
d. kəllə qutusu sümükləri
e. baldır- ayaq barmağı falanqaları

**FİZİKA**

**76.** Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı məktəbimizdə keçirilən fizika gecəsində divarda asılmış xarıbülbül şəkli **K mənbəyi** vasitəsilə işıqlandırılır. “Mənbə hansı açar və ya açarların qapanması zamanı **daha parlaq** işıqlanar?” sualına Şuşa komandası düzgün cavab bildirməklə qalib olmuşdur. Sizcə onlar hansı seçimi etmişdilər?




A) Yalnız 5 B) hamısını C) 2 və 5
D) 1,2,5 E) 1,2,3,5

**77.** Eyler-Venn diaqramının hissələrinə uyğun ifadələri müəyyən edin.




*a. yükdaşıyıcılar sərbəst elektronlardır.*
*b. cərəyanın istilik təsiri müşahidə olunur.*
*c. elektroliz hadisəsi baş verir.*
*d. cərəyanın kimyəvi təsiri müşahidə edilir.*
*e. cərəyanın maqnit təsiri müşahidə olunur.*

A) X- a, e Y - c, d Z - b
B) X- a Y - b, e Z - c, d
C) X- c Y - d Z - a, b, e
D) X- a Y - b Z - c, d, e
E) X- b, d Y - a, e Z - c

**78.** Dörd eyni naqil sabit gərginlik mənbəyinə öncə paralel sonra isə ardıcıl birləşdirilmişdir. Dövrədə cərəyan şiddəti necə dəyişər?

A) 4 dəfə artar B) 4 dəfə azalar
C) 2 dəfə azalar D) 16 dəfə artar
E) 16 dəfə azalar

**79.** İki rezistor sxemdəki kimi birləşdirilmişdir. Doğru münasibətləri seçin.




*1. $R=R_1 + R_2$*

2. $\frac{1}{R} = \frac{1}{R_1} + \frac{1}{R_2}$

*3. $J=J_1= J_2$*

4. $\frac{J_1}{J_2} = \frac{R_1}{R_2}$

*5. $U=U_1=U_2$*

6. $\frac{J_1}{J_2} = \frac{R_2}{R_1}$

A) 1,4,5  B) 2,4,5  C) 2,5,6
D) 3,4  E) 1,3,5

**80.** Tərəfləri a olan kvadratın təpə nöqtələrində şəkildə göstərildiyi kimi yüklər yerləşdirilmişdir. Diaqonalların kəsişmə nöqtəsi olan O nöqtəsində elektrik sahəsinin intensivliyinin istiqaməti necə yönəlmişdir?




A) ↗  B) →  C) ↓
D) ↑  E) ←

**81.** Müstəvi kondensatorun bir lövhəsi –8 mkKl, digər lövhəsi isə 8 mkKl yüklənmişdir. Kondensatorun yükü nə qədər olar?

A) - 4 mkKl  B) 0  C) 8 mkKl
D) 64 mkKl  E) 16 mkKl

**82.** Maddənin istilik tutumu hansılardan asılıdır?

*1. kütlədən*  *2. kimyəvi tərkibdən*
*3. temperaturdan*  *4. həcmdən*

A) 2,3,4  B) 1,2,4  C) yalnız 2,3
D) yalnız 1,4  E) 1,2,3,4

**83.** Nisbi rütubəti 40% olan havada su buxarının parsial təzyiqi 0,4 kPa -dirsa, həmin temperaturda doymuş su buxarının təzyiqini hesablayın.

A) 1,6 kPa  B) 4 kPa  C) 1 kPa
D) 1,2 kPa  E) 0,4 kPa

**84.** Təbiətdə ən aşağı temperatur hüdudu hansıdır?

A) -273 °C  B) 0° C  C) 32°F  D) -273 K  E) 0 °F

**85.** Naqildə cərəyan şiddətinin zamandan asılılıq qrafiki verilmişdir. 10 san ərzində naqilin en kəsiyindən neçə kulon yük keçər?




A) 200 Kl  B) 100 Kl
C) 50 Kl  D) 5 Kl
E) 2 Kl

**86.** Diaqrama əsasən dövrədə cərəyan şiddətlərini müqayisə edin.




A) $J_1 > J_2 > J_3 > J_4$
B) $J_1 = J_2 > J_3 = J_4$
C) $J_1 = J_2 < J_3 = J_4$
D) $J_1 < J_2 < J_3 < J_4$
E) $J_1 = J_2 = J_3 = J_4$

**87.** Vakuumda yükləri 2 q və -q olan eyni cisimlərin qarşılıqlı təsir qüvvəsi onları bir-birinə toxundurub eyni məsafəyə ayırsaq necə dəyişər?

A) 2 dəfə artar  B) 8 dəfə azalar
C) 3 dəfə azalar  D) 6 dəfə artar  E) dəyişməz

**88.** İstilik maşınında qızdırıcıdan alınan və soyuducuya verilən istilik miqdarını 4 dəfə artırsaq F.İ.Ə. -ı necə dəyişər?

A) 4 dəfə artar  B) 16 dəfə azalar
C) 2 dəfə artar  D) dəyişməz  E) 4 dəfə azalar

**89.** İntensivliyi 18 $\frac{N}{Kl}$ olan bircins elektrostatik sahədə hərəkət edən elektronun təcilini hesablayın. ( $q_e = 1,6 \cdot 10^{-19} Kl,\ m = 9 \cdot 10^{-31} kq,$ *ağırlıq qüvvəsi nəzərə alınmır*)

A) $10^{10} \frac{m}{san^2}$  B) $3,2 \cdot 10^{12} \frac{m}{san^2}$  C) $10^{11} \frac{m}{san^2}$
D) $6 \cdot 10^{12} \frac{m}{san^2}$  E) $0,8 \cdot 10^{12} \frac{m}{san^2}$

**90.** Naqillərdə eyni zaman müddətində ayrılan istilik miqdarlarının nisbətini $Q_2/Q_1$ tapın.




A) $\frac{4}{9}$ B) $\frac{9}{4}$ C) 1,5 D) $\frac{2}{3}$ E) 1

**91.** Otaqda psixrometrin quru və yaş termometrləri $30\,°C$ göstərirsə, havanın nisbi rütubətini (*faizlə*) müəyyən edin.

A) 0 B) 15% C) 60% D) 30% E) 100%

**92.** Hansı cihaz və ya cihazların iş prinsipi Coul-Lens qanununa əsaslanır ?

*1. ampermetr* *2. voltmetr* *3.əriyən qoruyucu*
*4. psixrometr* *5. qızdırıcı element*

A) 3 və 5 B) 1 və 2 C) 3,4,5
D) 1,2,3 E) yalnız 3

**93.** Müəssisənin binası üzərində gücü 200 Vt LED işıqlandırıcı günlük fasiləsiz işləyir. Şəkildəki bu işıqlandırıcının 1 ayda işlətdiyi elektrik enerjisi üçün müəssisə nə qədər pul ödəməlidir? (*1 ayda 30 gün, 1 kVtsaat elektrik enerjisinin 7 qəpiyə olduğunu qəbul etməli*)

A) 8 man 36 qəp
B) 42 man 7 qəp
C) 10 man 8 qəp
D) 362 man 88 qəp
E) 4 man 27 qəp




**94.** Mayenin qaynama temperaturu nədən asılıdır?

*1. mayenin növündən* *2. xarici təzyiqdən*
*3. qızdırıcının gücündən* *4. mayenin kütləsindən*
*5. yer səthində olan hündürlükdən*

A) yalnız 2 B) 1,3 C) 1,2,3,5 D) 1,2,5 E) 3,4

**95.** Dövrədəki cərəyan şiddəti hansı cihaz vasitəsilə tənzimlənir?




**96.** Nöqtəvi yükün sahəsinə gətirilmiş sınaq yükünə təsir edən qüvvənin sınaq yükündən asılılıq qrafikini göstərin.




**97.** 20 °C temperaturlu 12 kq su və 50 °C temperaturlu 24 kq su qarışdırılmışdır. Qarışığın son temperaturunu hesablayın. (*Cavabı °C ilə ifadə edin*)

**98.** Hansı kəmiyyətin vahidi BS- də əsas vahididir?

*1. həcmin* *2. kütlənin*
*3. cərəyan şiddətinin* *4. müqavimətin*
*5. mütləq temperaturun* *6. cərəyanın işinin*

**99.** Buxarlanma prosesinə aid doğru mülahizələri seçin:

*1. Öz mayesi ilə dinamik tarazlıqda olan buxar doyan haldadı.*
*2. Doyan buxarın təzyiqi temperaturdan asılıdır.*
*3. Buxarlanmanın sürəti mayenin növündən asılı deyil.*
*4. Temperatur yüksələndə buxarlanmanın sürəti artır.*
*5. Temperatur yüksələndə buxarlanmanın sürəti azalır.*

**100.** Maddənin temperatur-zaman qrafiki verilmişdir. Uyğunluğu müəyyən edin.




***1. I hissədə*** ***2. II hissədə*** ***3. III hissədə***

*a) mayenin kristallaşması prosesi baş verir.*
*b) buxarın kondensasiyası prosesi baş verir.*
*c) mayenin soyuması baş verir.*
*d) buxar molekullarının kinetik enerjisi dəyişmir.*
*e) maddənin daxili enerjisi dəyişmir.*

## KİMYA

**101.** Dövri sistem cədvəlinin kiçik dövrlərindən ibarət bir hissəsi verilmişdir. X-in sıra nömrəsinin 12 olduğunu bilərək, X və Y elementlərindən əmələ gələn birləşmənin formulunu (*A*) və bu birləşmədəki kimyəvi rabitənin növünü(*B*) müəyyən edin.

| X | | | Y |
|---|---|---|---|
| | | | |

| | A | B |
|---|---|---|
| A) | XY | ion |
| B) | $X_3Y_2$ | ion |
| C) | $X_3Y_2$ | kovalent |
| D) | $X_2Y_3$ | ion |
| E) | XY | kovalent |

**102.** Məhlulda hansı reaksiyaların baş verməsi mümkündür?




A) 3, 4, 5, 6  B) 4, 5, 6, 8  C) 1,3, 5, 7
D) 1, 4, 6, 8  E) 2, 5, 6, 7

**103.** Doğru ***olmayan*** fikir(lər)i müəyyən edin.




A) yalnız *a*  B) yalnız *b*  C) yalnız *c*
D) *a,b*  E) b,*c*

**104.** $2CO + O_2 \rightarrow 2CO_2$

Reaksiyası üzrə həcm-sürət asılılığı verilmişdir. *a* nöqtəsindən *b* nöqtəsinə keçdikdə sürət necə dəyişər? (*Reaksiya qapalı qabda baş verir*)




A) 2 dəfə artar
B) 2 dəfə azalar
C) 8 dəfə artar
D) 8 dəfə azalar
E) 4 dəfə artar

**105.** Hansı duzların suda məhlulunun elektrolizindən məhlulda turşu alınır?

*1.* $Na_2SO_4$ *2.* $Hg(NO_3)_2$ *3.* $HgCl_2$ *4.* $KCl$ *5.* $CuSO_4$

A) 1,2  B) 2,4,5  C) 3,5  D) 1,3,4  E) 2,5

**106.** $Mg + HNO_3 \rightarrow Mg(NO_3)_2 + N_xO + y\,H_2O$

reaksiyasında oksidləşdiricinin 1 molu 4 mol elektron almışdır. Reaksiyanı əmsallaşdırın və x+y cəmini tapın.

A) 5  B) 6  C) 7  D) 4  E) 10

**107.** ${}_{13}Al^{3+}$ ionundakı elektronların sayı $Y^{2+}$ ionundakı elektronların sayından 2 dəfə azdırsa, Y elementinin dövri sistemdə mövqeyini müəyyən edin.

A) 4-cü dövr IVB  B) 4-cü dövr IIA
C) 2-ci dövr VIIA  D) 3-cü dövr VIA
E) 3-cü dövr IIB

**108.** Hansı maddənin molekulunda *p-p* elektron buludlarının örtülməsi ilə əmələ gələn σ (*siqma*) rabitəsi var?

A) HCl  B) $Cl_2$  C) $NH_3$  D) $CH_4$  E) $H_2$

**109.** $KNO_3 + H_2O \xrightarrow{\text{elek-z}} X + Y + Z$

*X katodda ayrılan maddədir*

Hansı reaksiyanın məhsullarından biri X maddəsidir?

A) Cu + $H_2SO_4$(qatı) →
B) Fe + $HNO_3$(qatı) →
C) Zn + NaOH →
D) $CaCO_3 + SiO_2$→
E) $Al_2O_3$ + KOH →

**110.** Dövri cədvəldə verilmiş əsas yarımqrup elementləri üçün hansı ifadə **doğru deyil**?

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | Z | | | Y | |
| | | | | | | | |
| X | | | | | | T | |

A) T halogendir.
B) Z həyəcanlanmış hala keçə bilmir
C) Y-in elektromənfiliyi ən böyükdür.
D) X-ın atom radiusu ən böyükdür.
E) X və T-nin elektron təbəqələrinin sayı eynidir.

**111.** Doğru olanı müəyyən edin.

A)



B)



C)



D)



E)



**112.**

| *Duzlar* | *Suda məhlulunda dissosiasiya mərhələlərinin sayı* |
|---|---|
| *$Al_2(SO_4)_3$* | *x* |
| *$NaH_2PO_4$* | *y* |
| *A* | *z* |

$\frac{x+y}{z} = 2$ olarsa, A duzunu müəyyən edin.
A) $Ca(OH)Cl$   B) $NaK_2PO_4$   C) $Fe(OH)_2Cl$
D) $CaClBr$   E) $K_2SO_4$

**113.** Tərkibində 3 mol $BaCl_2$ və 2 mol $Na_2SO_4$ saxlayan məhlullar qarışdırılmışdır. Reaksiya tam başa çatdıqdan sonra məhlulda hansı ionlar olar?
A) $Ba^{2+}$, $SO_4^{2-}$   B) $Cl^-$, $Na^+$   C) $Ba^{2+}$, $Na^+$
D) $Ba^{2+}$, $Na^+$, $Cl^-$   E) $Ba^{2+}$, $Na^+$, $SO_4^{2-}$

**114.** Reaksiya sürətinin temperatur əmsalını hesablayın

| *Reaksiya gedən qabın temperaturu, $^0C$* | *Reaksiyanın sürəti, mol/l·san* |
|---|---|
| 50 | 0,3 |
| 70 | 2,7 |

A) 1   B) 2   C) 3   D) 4   E) 5

**115.** Qüvvətli elektrolitləri müəyyən edin
A) $H_2CO_3$, $H_2O$   B) $NaOH$, $CuSO_4$
C) $Ca(OH)_2$, $AgCl$   D) $Cu(OH)_2$, $AlCl_3$
E) $Fe(OH)_2$, $HCl$

**116.** $CH_2= C= CH – CH_3$ molekulunda:
▲ *σ ($sp^2$–s) rabitələrinin sayı – x*
▲ *Rabitələrin əmələ gəlməsində iştirak edən hibrid orbitallarının sayı– y*
▲ *π rabitələrinin sayı – z*
olarsa, (x+y) – z ifadəsinin qiymətini tapın.
A) 11   B) 12   C) 13   D) 15   E) 18

**117.** ● *Qüvvətli elektrolitdir.*
● *Aniona görə hidroliz edir.*
● *Elektrolizi zamanı kütləsi dəyişmir.*
Sulu məhlulda verilmiş şərtləri ödəyən duzu müəyyən edin
A) $Na_2SO_4$   B) $K_2CO_3$   C) $AgCl$
D) $Na_2S$   E) $BaSO_4$

**118.** Qrafikə əsasən reaksiyanın tarazlıq sabitini ($K_t$) hesablayın.
A) 0,6   B) 0,3
C) 6   D) 1,2
E) 0,12



**119.** $Ca(MnO_4)_2$ duzunda manqanın oksidləşmə dərəcəsini müəyyən edin.
A) +4 B) +3 C) +7 D) +2 E) +6

**120.** Hansı halda metal ionları oksidləşdiricilik qabiliyyətinin *azalması* sırası ilə düzülmüşdür?
A) $Mg^{2+}$,$Zn^{2+}$,$Cu^{2+}$ B) $Fe^{2+}$,$Zn^{2+}$,$Cu^{2+}$
C) $Cu^{2+}$, $Fe^{2+}$, $Hg^{2+}$ D) $Zn^{2+}$,$Mg^{2+}$,$Fe^{2+}$
E) $Cu^{2+}$, $Fe^{2+}$,$Zn^{2+}$

**121.** Verilmiş neçə maddə amfoter xassəlidir?

| |
|---|
| *BeO, MgO, $SO_3$, $Fe_2O_3$, $Fe_3O_4$, PbO, NO, $MnO_3$* |

A) 2 B) 3 C) 4 D) 5 E) 6

**122.** $N_2 + O_2 \leftrightarrow 2NO$
Verilmiş reaksiyanın tarazlığına **tәsir etmәyәnlәri** seçin.
*1. Temperaturun azaldılması*
*2. Qabın həcminin artırılması*
*3. Katalizatorun əlavə olunması*
*4. Təzyiqin azaldılması*
*5. Reaksiya məhsulunun qatılığının artırılması*

**123.** $FeCl_3 + 3NaOH \rightarrow$
Məhlulda aparılan reaksiya üçün doğru ifadələri müəyyən edin.
*1. $Fe^{3+}$ ionunun təyini reaksiyasıdır*
*2. $Cl^-$ ionunun təyini reaksiyasıdır*
*3. $OH^-$ ionlarının sayı azalır*
*4. Qonur rəngli çöküntü alınır*
*5. Qısa ion tənliyində bütün maddələrin əmsalları cəmi 4-ə bərabərdir*

**124.** 2 mol $AgNO_3$ duzunun suda məhlulunun elektrolizi zamanı anodda ayrılan maddənin kütləsini (*qramla*) hesablayın.
$A_r(Ag)= 108$; $A_r(O)= 16$; $A_r(N)= 14$; $A_r(H)= 1$

**125.** X, Y və Z metallarını reaksiyalara uyğun olaraq müəyyən edin.

| *Reaksiyalar* | *Metallar.* |
|---|---|
| 1. $X + H_2O \rightarrow X(OH)_2 + H_2$ | a. Ag |
| 2. $Y + H_2O \xrightarrow{t} YO + H_2$ | b. Ba |
| 3. $Z + H_2O \rightarrow$ reaksiya getmir | c. Na |
| | d. Zn |
| | e. Hg |

Qəbul İmtahanı - 2023

# TDV BAKI TÜRK LİSEYİNİN İLLƏRƏ GÖRƏ QƏBUL UĞURLARI

## 2001 2022

- 700: 19
- 600+ bal: 878
- Məzun sayı: 1896
- Qızıl medal: 134
- Ölkə birincisi: 33
- Prezident təqaüdçüsü: 878

## 2022

- 2 — 300 BAL (*Buraxılış IX sinif*)
- 1 — 400 BAL (Qəbul)
- 33 — 650 - 700 BAL
- 33 — 600 - 650 BAL
- 66 — 600 - 700 BAL
- 5 — Qızıl Medal
- 1 — 394 BAL (*Ölkə birincisi*)
- 3 — Prezident təqaüdü
- 118 — Fərqlənmə Diplomu
- 84 — Xarici ölkəyə qəbul
- 19 — YTB təqaüdü
- 93 — Fərqlənmə Diplomu (*XI sinif*)

TDV-BTL 2023